AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 7/5

Bakı şəhəri 14 mart 2018-ci il

Azərbaycan Milli Elmlər Akademiyasının
beynəlxalq elmi layihələrdə iştirakı haqqında

Azərbaycan Milli Elmlər Akademiyası müxtəlif ölkələrin beynəlxalq təşkilatları və akademik qurumları ilə əməkdaşlığı inkişaf etdirir. Bu əməkdaşlıq çərçivəsində AMEA tərəfindən aşağıda qeyd edilən qurumlarla Müştərək Proqramlar üzrə 2018-2020-ci illər üçün layihə müsabiqələri elan edilmişdir:

- İtaliya Milli Tədqiqat Şurası (İMTŞ) – 08 may 2017-ci il tarixində;
- Bolqarıstan Elmlər Akademiyası (BEA) – 30 may 2017-ci il tarixində;
- Belarus Dövlət Elm və Texnologiya Komitəsi (BDETK) – 14 iyul 2017-ci il tarixində.

Müsabiqələr çərçivəsində İMTŞ ilə 14 müştərək layihə, BEA ilə 6 müştərək layihə, BDETK ilə 5 müştərək layihə təqdim olunmuşdur. Layihələr AMEA və tərəfdaş təşkilatların müstəqil ekspertləri tərəfindən qiymətləndirilmiş və ən yüksək göstəriciləri olan layihələr müəyyənləşdirilərək AMEA Rəyasət Heyətinin müzakirəsinə təqdim olunmuşdur.

Qiymətləndirmənin nəticəsini nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR**:

1. Bu qərara əlavə olunmuş siyahıda göstərilən elmi tədqiqat layihələri təsdiq edilsin (əlavə olunur).
2. AMEA Rəyasət Heyəti aparatının Beynəlxalq əlaqələr idarəsinə (biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva) tapşırılsın ki, qərarın icrasından irəli gələn təşkilati məsələlər həll edilsin.
3. AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, layihələrin maliyyələşdirilməsi ilə bağlı məsələlər müəyyən olunmuş qaydada həll edilsin.
4. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT